RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 283 (9738) 22 dekabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin daha bir məntiqi nəticəsi

## İndi Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının da üzvüdür

Dövlətimizin başçısı İlham Əliyev ilk dəfə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8-in 2017-ci ildə İstanbulda keçirilmiş IX Zirvə görüşündə iştirak edib. İndi isə Azərbaycan artıq təşkilatın üzvüdür və heç bir şübhə yoxdur ki, ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasında, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq.

Müasir toqquşmalar və siyasi gərginlik fonunda regionumuzda təhlükəsizliyin və sabitliyin təmin edilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir və bu xüsusda geosiyasi mövqeyi, geniş iqtisadi potensialı və müasir nəqliyyat infrastrukturu ilə Azərbaycan özünü etibarlı regional mərkəzlərdən biri kimi təsdiqləyib. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan mühüm enerji layihələrinin həyata keçirilməsində və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində əhəmiyyətli rola malikdir. Bununla yanaşı, ölkəmiz bir sıra beynəlxalq təşkilatlara uğurlu sədrlik etməklə də qlobal problemlərin həllinə öz töhfəsini verir. BMT-dən sonra dünyanın ən böyük təsisatı olan Qoşulmama Hərəkatına 4 illik sədrliyi, eləcə də dünyada ən möhtəşəm tədbirlərdən biri olan COP29 üzrə sədrliyi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunu bir daha bariz şəkildə göstərdi.

D-8-in XI Sammitində ölkəmiz Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Baş nazir tədbirdəki çıxışında diqqətə çatdırıb ki, Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına son qoyaraq, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Eləcə də işğal zamanı azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, ərazilərimizdə urbisid, kultursid və ekosidin törədilməsi, Azərbaycan xalqının mədəni və dini irsinin məhv edilməsi barədə sammit iştirakçılarına məlumat verilib. Hazırda Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, kənd və şəhərlərin tamamilə yenidən qurulduğu bildirilib. Qeyd edilib ki, yeni reallıqlar regionda davamlı sülh və sabitlik, həmçinin qarşılıqlı faydalı əməkdaşlıq üçün unikal imkanlar açır. Azərbaycan regional sülh gündəliyinə sadiqdir və bu istiqamətdə qəti addımlarını davam etdirəcək.

→ 3

## Prezident İlham Əliyev almaniyalı həmkarına başsağlığı verib

### Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

Hörmətli cənab Prezident!

Maqdeburq şəhərindəki Milad yarmarkasında baş vermiş faciəli hadisə nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Almaniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 dekabr 2024-cü il*

## Azərbaycana göstərilən növbəti qlobal etimad

"İslam səkkizliyi"nə üzvlük Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın parlaq nümunəsidir. Prezident İlham Əliyevin qətiyyətli və uğurlu addımlarına əsaslanan çoxqütblü xarici siyasətimizdə islam dünyası ilə əməkdaşlığın dərinləşdirilməsinin xüsusi önəmi var. Azərbaycanın D-8-ə qoşulması ölkəmizin multilateralizm siyasətinə sadiqliyinin bariz göstəricisidir. İslam coğrafiyasını təmsil edən təşkilatlar və dövlətlərlə sıx və məhsuldar əməkdaşlıq Azərbaycana müxtəlif geosiyasi maneələrin aşılması prosesində ciddi dəstək deməkdir. 44 günlük Vətən müharibəsi ərzində və son 4 ildə Azərbaycana qarşı müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində edilən hər hansı hücum cəhdinin qarşısı, o cümlədən qardaş müsəlman dövlətlərinin birgə səyi və dəstəyi sayəsində neytrallaşdırılmışdır. Ötən ilin avqust-sentyabr aylarında BMT Təhlükəsizlik Şurasında Ermənistan və Fransanın nəticəsiz qalmış siyasi təxribatlarını bu baxımdan xüsusilə qeyd etmək lazımdır.

Prezident İlham Əliyev ilk dəfə D-8-in IX Sammitində iştirak edib. Bu il dekabrın 19-da Azərbaycanın qurumun tam üzvlüyünə yekdilliklə qəbul edilməsi dövlət başçısının müsəlman aləmində malik olduğu hörmətin, ölkəmizə göstərilən diqqət və qayğının, habelə hədsiz marağın təcəssümüdür. Belə bir mötəbər qurumda təmsilçilik təşkilat üzvlərinin lazım gəldikdə Azərbaycana göstərəcəkləri dəstəklə bərabər, dövlətimizin də islam dünyasının problemlərinin həllində daha yaxından iştirak imkanı əldə etməsi deməkdir.

Hazırkı qeyri-sabit, siyasi təlatümlərlə bol zaman kəsiyində müsəlman dövlətlərinin birliyi onların qarşısına çıxan müxtəlif səpkili çətinliklərin dəf edilməsi baxımından olduqca vacibdir. Sıx kooperasiya formatında əməkdaşlıq edən islam dünyası problemlərini özü həll edə bilər.

→ 3

## Şuşa şəhərinə növbəti köç karvanı yola salınıb

Bu mərhələdə Şuşa şəhərinə 49 ailə - 191 nəfər köçürülüb. Doğma yurda qayıdan Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər.

Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Şuşaya çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Doğma yurduna qovuşanlara açarların təqdim edilməsi mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər. Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib.

→ 7



## Azərbaycanın prinsipləri dəyişməzdir

Prezident İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində bu reallığı bir daha vurğuladı. Dövlət başçısı Azərbaycanın istər Qərbdə, istərsə də Şərqdə müstəqil siyasət yürüdən aktor kimi qəbul edildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev müsahibəsində olduqca əhəmiyyətli, çox vacib mesajlar verdi. Müsahibədə dövlət başçısı Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyədə olduğunu vurğuladı: "Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur".

Prezident İlham Əliyev Qərblə Rusiya arasında gərginliyin aradan qaldırılması ilə bağlı Azərbaycanın mövqeyini açıqladı. Geniş müsahibədə respublikamızın hazırkı gərgin beynəlxalq münasibətlər sistemindəki roluna nəzər saldı.

Dövlət başçısı sülh danışıqlarının gedişi, Ermənistanın silahlanması, Fransanın müstəmləkəçilik siyasəti, ölkəmizə qarşı Qərbin apardığı qarayaxma kampaniyasının iflasa uğaradılması və digər mühün məsələlər barədə dolğun və əhatəli məlumatlar verdi. "Nikol Paşinyan KTMT ilə münasibətlərində geri dönüşün olmadığını açıqlayıb, Fransa ilə münasibətləri fəallaşdırır. Bu, regional təhlükəsizlik, xüsusən də Azərbaycan üçün nə deməkdir?" sualına cavabında Prezident İlham Əliyev diqqətə çatdırdı ki, bu, birbaşa təhlükə deməkdir, biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarımda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq: "Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var.

→ 6

## Avropa terrora təslim olur

Almaniyanın Maqdeburq şəhərində təşkil olunmuş Milad yarmarkasında terror aktı törədilib. Meriya yaxınlığındakı köhnə bazarda bir nəfər avtomobilini Yeni il hədiyyələri almağa gələn camaatın üstünə sürüb. Çoxlu sayda insanın yaralandığı bildirilir. Həlak olanlar da var.

Hücum faktını Almaniya hökumətinin sözçüsü Matias Şuppe təsdiqləyib. Polis 80 nəfərin yaralandığını bildirib. Onlardan 15-nin vəziyyəti ağırdır. Saksoniya-Anhalt federal əyalətinin baş naziri Rayner Haseloffun sözlərinə görə, terror aktı nəticəsində biri azyaşlı uşaq olmaqla iki nəfər dünyasını dəyişib.

Terrorçu hücumdan dərhal sonra saxlanılıb. "Die Welt" qəzetinin məlumatına görə, hücum edən 1974-cü il təvəllüdlü kişidir. O, Səudiyyə Ərəbistanından 2006-cı ildə Almaniyaya gəlmiş həkimdir.

Həftəlik "Der Spiegel" 50 yaşlı şübhəli Taleb əl-Abdulmohsenın psixiatr və psixoterapevt olduğunu aydınlaşdırıb.

→ 7



# Qərbi Azərbaycan İcmasının cari ilin yekunlarına dair ümumi yığıncağı



Dekabrın 21-də Qərbi Azərbaycan İcmasının cari ilin yekunlarına dair ümumi yığıncağı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Ulu Öndər Heydər Əliyevin, Vətən uğrunda mübarizədə canından keçən şəhidlərin xatirəsinin yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Yığıncaqda açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev siyasi və hüquqi əsası ilk dəfə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Qərbi Azərbaycan məsələsinin Prezident İlham Əliyevin qətiyyəti nəticəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyini qeyd edib. O, 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin öz ailəsi hesab etdiyi Qərbi Azərbaycandan olan ziyalılarla görüşünü tarixi hadisə adlandırıb, bu görüşün Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə öz doğma torpaqlarına qayıtmaq inamını daha da möhkəmləndirdiyini bildirib.

Ə.Vəliyev Prezident İlham Əliyevin tapşırığı ilə Qərbi Azərbaycan İcması tərəfindən hazırlanaraq qəbul edilmiş Qərbi Azərbaycana sülhsevər qayıdışın konseptual əsası olan







"Qayıdış Konsepsiyası"nın icmanın fəaliyyətinin əsasını təşkil etdiyini, bu konsepsiyaya uyğun olaraq ölkə daxilində və xaricdə genişmiqyaslı işlər görüldüyünü deyib.

"İcma yüz minlərlə üzvünün hüquqlarının müdafiəsi və onların doğulduqları torpaqlara qayıdışının baş tutması üçün əzmlə çalışır. Bunun nəticəsidir ki, qərbi azərbaycanlıların haqq mübarizəsini təkcə bütün dünya azərbaycanlıları deyil, tərəqqipərvər dünya ictimaiyyəti də dəstəkləyir. Bu il dekabrın 5-6-da keçirilən "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" adlı II Beynəlxalq Konfransa dünyanın 51 ölkəsindən 100-dən çox xarici qonağın, ölkəmizdə akkreditə olunan diplomatik korpusun nümayəndələrinin qatılması bunun əyani göstəricisidir", - deyə Ədalət Vəliyev əlavə edib.

Administrasiya rəsmisi dövlətimizin başçısının tədbir iştirakçılarına müraciət ünvanlamasını və icmanın bir qrup fəal üzvünü təltif etməsini növbəti tarixi hadisə kimi səciyyələndirib, 10 ölkədən 16 nəfərin icmanın fəxri üzvlüyünə qəbul edilməsinin təqdirəlayiq hal olduğunu vurğulayıb.

Sonra çıxış edən icmanın idarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərov idarə heyətinin və icma aparatının hesabatını təqdim edib. Ə.Ələkbərov bildirib ki, cari il ərzində icmanın çoxşaxəli fəaliyyətinin əsas məqsədi soydaşlarımızın öz doğma yurdlarına qayıdışı, indiki Ermənistan ərazisində dağıdılan tarixi-mədəni abidələrimizin qorunması, deportasiyalar nəticəsində ciddi zərər görmüş qeyri-maddi mədəni irsimiz üçün ədalətin təmin edilməsi olub. Natiq bundan sonra da soydaşlarımızın təməl hüquqlarının təmin olunması istiqamətində fəaliyyətlərini daha da genişləndirəcəyini deyib, bu işdə icmanın fəaliyyətinə dəstək olan bütün qurumlara təşəkkürünü bildirib.

Qərbi Azərbaycan İcmanın Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov, Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov, Ziyalılar Şurasının sədri, professor Elxan Hüseynov, Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Gənclər Şurasının sədr müavini, Milli Məclisin deputatı Kamal Cəfərov müvafiq şuraların hesabatlarını təqdim edib, iştirakçıların suallarını cavablandırıblar.

Daha sonra Ədalət Vəliyev İcma üzvlərindən Prezident İlham Əliyevin sərəncamları ilə "Şöhrət" ordeni ilə təltif olunmuş Fikrət Əliyevə, 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuş İsmət Abbasova, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunmuş Dilarə Seyidzadə və Vaqif Şadlinskiyə, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş Həsən Həsənova mükafatları təqdim edib.

Qeyd edək ki, icmanın nizamnaməsinə uyğun olaraq hər il keçirilən ümumi yığıncağın məqsədi təşkilatın illik fəaliyyətinin qiymətləndirilməsi, görülmüş işlərə dair hesabatların dinlənilməsi, o cümlədən, növbəti ildə qarşıda duran prioritetlərin müəyyən edilməsidir.

# "Qərbi Azərbaycan: Tarixin izi ilə - intellektual oyunlar çempionatı" keçirilib

Dekabrın 21-də Heydər Əliyev Mərkəzində Gənclər və İdman Nazirliyinin dəstəyi, "Regional İnkişaf" İctimai Birliyi və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycan: Tarixin İzi ilə - İntellektual Oyunlar Çempionatı" layihəsi çərçivəsində 16-29 yaşlı gənclər arasında "Nə? Harada? Nə zaman?" və "Kviz" oyunları keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən "Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi Murad Qasımlı layihənin məqsədi, Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri və tarixi şəxsiyyətləri, toponimləri, folkloru, eləcə də Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın doğma yurdlarına qayıtmaları istiqamətində ölkəmizin haqlı mövqeyi barədə xüsusilə gənclərin biliklərinin və məlumatlılığının artırılmasının əhəmiyyətini, bu istiqamətdə müxtəlif layihələrin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Gənclər və İdman Nazirliyinin İctimai inkişaf sektorunun müdiri Elşən Qəhrəmanov, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov və Qərbi Azərbaycan İcmasının Ağsaqqallar şurasının üzvü, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, akademik Elşad Qurbanov çıxışlarında layihənin əhəmiyyəti, Qayıdış konsepsiyasının reallaşdırılmasında gənclərin üzərilərinə düşən vəzifələr, bu sahədə dövlət tərəfindən yürüdülən siyasətin həyata keçirilməsinə hər bir vətəndaşın töhfə verməli olduğunu vurğulayıb, gəncləri beynəlxalq ictimaiyyətin soydaşlarımızın ata-baba yurdlarına qayıtmaları istiqamətində ölkəmizin haqlı mövqeyi barədə düzgün məlumatlandırılmasında fəallıq göstərməyə çağırıblar.

Qarabağ problemi həll olunduqdan sonra Prezident İlham Əliyevin siyasətində Qərbi Azərbaycana qayıdış məsələsinin əsas siyasi istiqamətlərdən birinə çevrildiyini deyən çıxışçılar bununla bağlı ciddi işlər görüldüyünü diqqətə çatdırıblar. Bugünkü bilik yarışının da bu istiqamətdə atılan addımlardan biri olduğu vurğulanıb. Bildirilib ki, bu sahədə dövlət qurumları özünəməxsus şəkildə dəstək verməyə çalışır. Azərbaycan gəncliyinin 44 gündə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı Zəfərdən danışan natiqlər gənclərin bundan sonra da fəallıqlarını davam etdirmələrinin, Qayıdış konsepsiyasının icrasında fəal iştirak etmələrinin vacibliyini vurğulayıblar.

Daha sonra "Nə? Harada? Nə zaman?" və "Kviz" oyunlarına start verilib. İlkin mərhələdə qeydiyyatdan keçmiş 30 komanda "Nə? Harada? Nə zaman?" intellektual oyununda mübarizə aparıb. Dörd turdan ibarət "Nə? Harada? Nə zaman?" intellektual oyununun sonunda münsiflər heyəti tərəfindən komandaların cavabları sayılıb. Nəticələrə əsasən, "Zəngəzur" komandası I, "Xudafərin" komandası II və "Köhnə qvardiyaçılar" komandası III yerə layiq görülüb.

Növbəti mərhələdə komandalar "Kviz" oyununda iştirak edərək 15 mövzu üzrə sualları cavablandırıb. Münsiflər heyəti tərəfindən nəticələr hesablanıb. "Zəngəzur" komandası I, "Xudafərin" komandası II və "Köhnə qvardiyaçılar" komandası III yerə sahib olub.

Sonda qalib komandalar müxtəlif mükafatlar və sertifikatlar ilə təltif edilib.

Qeyd edək ki, ötən ildən icrasına başlanılan layihənin əsas məqsədi Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın öz doğma yurdlarına qayıtması hüququnun təmin olunmasını, insan hüquqları məsələsi və sülhsevər missiya olaraq Qərbi Azərbaycana qayıdışı xalqımızın əsas hədəflərindən biri kimi göstərməklə, bütövlükdə Azərbaycan ictimaiyyətini, xüsusən də gəncləri bu amal uğrunda səfərbər etməkdir. Gələcəkdə gənclərimizin bu məsələyə daha çox diqqət yetirmələri və ölkəmizin haqlı mövqeyini daha geniş kütləyə çatdırmaları üçün bu istiqamətdə daha çox intellektual oyunların, təhsil proqramlarının və məlumatlandırma tədbirlərinin keçirilməsi nəzərdə tutulur.

# Leyla Əliyeva Keniya Prezidenti ilə görüşüb

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Nayrobi şəhərində Keniya Respublikasının Prezidenti Uilyam Samoei Ruto ilə görüşüb.





AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Keniya Prezidentinə çatdırıb.

Görüşdə iki ölkə arasında əlaqələr, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ilə müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. İkitərəfli əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Leyla Əliyeva Fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində həyata keçiriləcək layihələrin əhəmiyyətini qeyd edib. Təhsil, səhiyyə, ətraf mühitin qorunması, iqlim dəyişikliyi ilə mübarizə və mədəniyyət sahələrində layihələrin, habelə təhsil üzrə mübadilə proqramlarının həyata keçiriləcəyini, incəsənət nümunələrinin beynəlxalq layihələrdə birgə təqdimatı üzrə əməkdaşlıq ediləcəyini bildirib.



Prezident Ruto ölkəmizin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla evsahibliyi etdiyini deyib. Azərbaycan ilə Keniya arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin dinamik inkişafından məmnunluğunu ifadə edib. O, iqlim fəaliyyəti, enerji, ticarət və sərmayələr, turizm, təhsil və digər sahələr daxil olmaqla, müxtəlif istiqamətlərdə əməkdaşlığı inkişaf etdirmək və tərəfdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu bildirib. Dövlət səviyyəsində, o cümlədən Heydər Əliyev Fondunun dəstəyi ilə təhsil, mədəniyyət, səhiyyə və digər humanitar sahələrdə həyata keçirilən layihələrin əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayıb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Keniya Respublikasının Prezidenti Uilyam Samoei Rutoya ölkəmizə səfərə dəvət məktubu təqdim edilib.

Prezident Ruto dəvətə görə təşəkkür edib, onu məmnuniyyətlə qəbul etdiyini bildirib.

# Leyla Əliyeva Nayrobi tam orta məktəbində və tibb mərkəzində olub























Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 21-də Nayrobi şəhərində bu ölkənin ən qədim təhsil ocaqlarından olan Nayrobi tam orta məktəbinə baş çəkib.

AZƏRTAC xəbər verir ki, məktəbdə Fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində avadanlıqlarla təchiz edilmiş laboratoriya və kompüter sinfinin açılışı olub. Sonra Leyla Əliyeva Nayrobi şəhərindəki Kangemi Tibb Mərkəzinə gəlib. Mərkəzin yeni doğulan uşaqlar bölməsi ilə tanış olub. Heydər Əliyev Fondu tərəfindən tibb mərkəzinə küvəzlər, eləcə də analara Yeni il münasibətilə hədiyyələr təqdim edilib.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycana göstərilən növbəti qlobal etimad

İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Qahirədə keçirilən XI Sammitində Azərbaycanın yekdilliklə quruma üzv seçilməsi müstəqillik tariximizdə beynəlxalq diplomatik uğurlarımızın sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yaddaşlarda qalacaq.

Bu hadisə Prezident İlham Əliyevin qətiyyətli və effektiv xarici siyasətinin məntiqi nəticəsi olmaqla bərabər, həm də dövlətimizin çoxtərəfli və güclü diplomatiyasının daha bir uğurudur. Azərbaycan müsəlman dövlətləri və islam aləmini təmsil edən beynəlxalq platformalarla daim sıx təmasdadır. İslam dünyasının nüfuzlu qurumu olan D-8-ə üzvlük həmrəylik, təəssübkeşlik və qarşılıqlı maraqların təmin olunması prinsipinə əsaslanan məhsuldar əməkdaşlığın göstəricisidir.

### İslam dünyasının elitar birliyi

D-8-in sıralarına inkişaf etməkdə olan səkkiz müsəlman dövləti daxildir. Bu, böyük coğrafiyanı əhatə edən müsəlman dünyasının səkkiz qabaqcıl dövlətinin elitar birliyidir. Təşkilatın yaradılması təşəbbüsü qardaş Türkiyəyə məxsusdur. 1996-cı ilin 22 oktyabrında İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Konfransında Türkiyənin təklifinin müsbət nəticəsi olaraq İndoneziya, Malayziya, Pakistan, Misir, İran, Nigeriya və Banqladeş prioritet hədəf kimi iqtisadi kooperasiyanın dərinləşdirilməsi ideyasını əsas tutaraq vahid platformada təmsilçiliyə razılıqlarını bildiriblər. Bir il sonra, 15 iyul 1997-ci ildə adıçəkilən dövlətlərin rəhbərləri və hökumət başçılarının iştirakı ilə keçirilən sammitdə D-8-in əsası qoyulub. Qurumun katibliyi təsis konfransının keçirildiyi İstanbul şəhərində yerləşir. Hazırda reallaşmaqda olan əməkdaşlığın hədəfləri və konturları "2020-2030-cu illər üçün Yol xəritəsi"ndə öz əksini tapır.

Üç qitəni təmsil edən üzv dövlətlərin məcmu ÜDM-si 4 trilyon dollardan artıqdır. Ticarət dövriyyəsi isə 130 milyard dolların üzərindədir. Bu ölkələrin əhalisinin sayı müsəlman aləminin ümumi əhalisinin təqribən 60 faizini təşkil edir. "İslam səkkizliyi" simvolik adını almış qurum üzvləri böyük iqtisadi potensiala malikdirlər. Bu, qurumun lazımi anlarda siyasi həmrəylik göstərməsi yolunda olduqca vacib amildir. Azərbaycanın D-8-ə üzvlüyü dövlətimizin islam coğrafiyasındakı yeri və mövqeyinin daha da möhkəmlənməsi, müsəlman dünyasında baş verən hadisələrdə oynadığı rolun bir o qədər də təsirli və keçərli olması anlamına gəlir.

### Azərbaycanın nüfuzu

"İslam səkkizliyi"nə üzvlük Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın parlaq nümunəsidir. Prezident İlham Əliyevin qətiyyətli və uğurlu addımlarına əsaslanan çoxqütblü xarici siyasətimizdə islam dünyası ilə əməkdaşlığın dərinləşdirilməsinin xüsusi önəmi var. Azərbaycanın D-8-ə qoşulması ölkəmizin multilateralizm siyasətinə sadiqliyinin bariz göstəricisidir. İslam coğrafiyasını təmsil edən təşkilatlar və dövlətlərlə sıx və məhsuldar əməkdaşlıq Azərbaycana müxtəlif geosiyasi maneələrin aşılması prosesində ciddi dəstək deməkdir. 44 günlük Vətən müharibəsi ərzində və son 4 ildə Azərbaycana qarşı müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində edilən hər hansı hücum cəhdinin qarşısı, o cümlədən qardaş müsəlman dövlətlərinin birgə səyi və dəstəyi sayəsində neytrallaşdırılmışdır. Ötən ilin avqust-sentyabr aylarında BMT Təhlükəsizlik Şurasında Ermənistan və Fransanın nəticəsiz qalmış siyasi təxribatlarını bu baxımdan xüsusilə qeyd etmək lazımdır.

Prezident İlham Əliyev ilk dəfə D-8-in IX Sammitində iştirak edib. Bu il dekabrın 19-da Azərbaycanın qurumun tam üzvlüyünə yekdilliklə qəbul edilməsi dövlət başçısının müsəlman aləmində malik olduğu hörmətin, ölkəmizə göstərilən diqqət və qayğının, habelə hədsiz marağın təcəssümüdür. Belə bir mötəbər qurumda təmsilçilik təşkilat üzvlərinin lazım gəldikdə Azərbaycana göstərəcəkləri dəstəklə bərabər, dövlətimizin də islam dünyasının problemlərinin həllində daha yaxından iştirak imkanı əldə etməsi deməkdir.

### Həmrəylik və təəssübkeşliyin model nümunəsi

Hazırkı qeyri-sabit, siyasi təlatümlərlə bol zaman kəsiyində müsəlman dövlətlərinin birliyi onların qarşısına çıxan müxtəlif səpkili çətinliklərin dəf edilməsi baxımından olduqca vacibdir. Sıx kooperasiya formatında əməkdaşlıq edən islam dünyası problemlərini özü həll edə bilər. Əks halda kənar qüvvələrin, xüsusilə islamofob ölkələr qrupunun islam aləmindəki daxili proseslərə müdaxilə cəhdləri bu böyük coğrafiyada yerləşən hər bir dövlət və xalq üçün ağrılı nəticələrə səbəb ola bilər və olur. Kollektiv Qərbin təhriki və qızışdırıcı müdaxiləsi ilə yaxın tariximizdə izlədiyimiz ağrı-acılı, qanlı hadisələr yüzminlərlə müsəlmanın və müsəlman ailəsinin şəxsi faciəsinə çevrilmişdir. Şəhərlər və kəndlər yerlə bir olmuş, milyonlarla insan vətənlərindən və tarixən mental bağlılığa malik olduqları torpaqlardan məcburən qaçqın düşmüşlər. Son on ildən artıq müddətdə Suriya əhalisinin uzaq Avropa qitəsinin fərqli ölkələrində pənah axtarışı ilə çətin tale yaşaması bu faciəni gözlərimiz önündə canlandıran qlobal dramdır.

Suriyada baş verən son hadisələrin böyük insan tələfatları olmadan ötüşməsi müsəlman ölkələrinin birliyi və yardımlaşması nümunəsidir.

Azərbaycanın islam dövlətləri ilə tarixən ənənəvi dost və mehriban münasibətləri olub. Qardaş Türkiyə ilə münasibətlər bu gün ən yüksək pillədə qərarlaşıb. Bütün sahələrdə qarşılıqlı əməkdaşlığımız və birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillərdəndir. Dost Pakistan və Səudiyyə Ərəbistanı 30 ilə yaxın müddətdə dövlətimizə güclü mənəvi dəstək göstəriblər. Bu dövlətlər Azərbaycan torpaqlarını Ermənistanın işğal etməsi səbəbindən həmin dövlətlə diplomatik münasibətlər qurmayıblar. İkinci Qarabağ savaşı günlərində Azərbaycanın yanında olublar. Bu dəstək və müdafiə bütün islam dünyası üçün həmrəylik və təssübkeşliyin model nümunəsi qismində çıxış edə bilər.

### D-8 və Azərbaycanın zəngin potensialı

Azərbaycan müsəlman dünyasını təmsil edən dövlətlərlə, sırf islam coğrafiyasını əhatə edən çoxtərəfli platformalarla yanaşı, bir sıra digər qurumlar çərçivəsində də əməkdaşlıq etməkdədir. Məsələn, bu qəbildən olan beynəlxalq təşkilatlardan Qoşulmama Hərəkatını xüsusi vurğulamaq lazımdır. BMT-dən sonra üzvlərinin və əhatə etdiyi qitələrin sayına görə ikinci böyük millətlərarası institut olan bu qurumda xeyli sayda müsəlman dövləti təmsil olunur. Azərbaycan təşkilat daxilində bu ölkələrlə hökumətlər və parlamentlər səviyyəsində sıx, işgüzar ünsiyyətə malikdir. Bu reallıq regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi-ticarət və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişaf etdirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir.

D-8-in əsas hədəf və məramı iqtisadi müstəvidə daha sıx birgə əməkdaşlıqdan ibarətdir. Bu amil Azərbaycan qarşısında yeni üfüqlər açır. Birincisi, dövlətimizin bu elitar ölkələr qrupuna qəbul edilməsi iqtisadi nüfuz və imkanlarımızın daha geniş miqyasda tanınması və qəbul edilməsi deməkdir. İkincisi isə, D-8 Azərbaycanın malik olduğu iqtisadi resurslar, təcrübə və logistik imkanlar baxımından islam aləmi ilə mövcud olan əməkdaşlıq göstəricilərini daha da yüksəltmək üçün əlverişli fürsətdir.

Azərbaycan tarixboyu Qərblə Şərqin kəsişdiyi bölgədə yerləşməklə bir növ körpü rolunu oynayıb. Ölkəmiz tarixi İpək yolunun üzərində yerləşib. Qərb, Avropa ölkələrinin Şərq bazarına ənənəvi marağı xalqımızın və dövlətçilik tariximizin bu qlobal siyasi, iqtisadi-ticari prosesdən təcrübə toplamasına, zənginləşməsinə öz töhfəsini verib. Prezident İlham Əliyevin geniş siyasi və iqtisadi gücü Azərbaycanın malik olduğu bu tarixi fürsətdən maksimum şəkildə yararlanmasına təminat yaradır. Ölkəmiz özünün inkişaf etmiş və şaxələnmiş yol-nəqliyyat infrastrukturu ilə müasir dünyanın logistik problemlərinin həllində aparıcı rollardan birini oynayır.

Azərbaycanın ərazilərini geri qaytarması, suverenliyini və sərhədlərinin bütövlüyünü bərpa etməsi təkcə dövlətimiz və xalqımız üçün deyil, daha qlobal coğrafiyada digər dövlətlər, hətta qitələr üçün əməkdaşlıq hüdudlarını genişləndirir. Məsələn, bu gün aktual olan Orta dəhliz layihəsinin əsas bəndlərindən biri kimi məhz Azərbaycan çıxış edir. Ölkəmizin qeyri-dayanıqlı dünyada sabitlik adası olması iri iqtisadi mərkəzlərin və bazarların mal mübadiləsi prosesində aparıcı və həlledici faktor qismində çıxış etməsinə şərait yaradır. Xüsusilə son 2 ildə Rusiya ilə Ukrayna arasında yaşanan hərbi gərginlik fonunda dünya bazarında baş verən proseslər, ənənəvi yükdaşıma istiqamətlərinin aktuallığını itirməsi reallığında Azərbaycanın mövqeləri durmadan güclənir.

Azərbaycan D-8-ə məhz belə geniş imkanları və proseslərə təsir alətləri ilə üzv olub. Ölkəmizin malik olduğu iqtisadi resursları, logistik infrastrukturu, intellektual potensialı ilə "İslam səkkizliyi"nin aparıcı üzvlərindən biri olacağı şübhə doğurmur. Siyasi gündəmdə olan və mütləq gerçəkləşəcək Zəngəzur dəhlizi islam coğrafiyası ilə yalnız Azərbaycan və Cənubi Qafqazı deyil, həmçinin Orta Asiyanın türk dövlətlərini, Rusiyanı, uzaq Çini və Cənub-Şərqi Asiyanın zəngin, qabaqcıl bazarlarını əlaqələndirə bilər. Təkcə bu fakt Zəngəzur dəhlizinin hansı qlobal əhəmiyyət daşıdığını sübut edir.

### Çoxqütblü əməkdaşlığa əsaslanan müstəqil siyasət

Azərbaycanın D-8-ə üzvlüyü dövlətimizin xarici siyasət gündəmini tamamlayan növbəti uğurlu addımdır. Rəsmi Bakı islam dünyası ilə həmrəyliyə bərabər "Qlobal Cənub" adını almış inkişaf etməkdə olan dövlətlər qrupu ilə fəal münasibətlər qurmaqda maraqlıdır. Ölkəmiz eyni zamanda Avropa İttifaqının ayrı-ayrı üzvləri ilə strateji səviyyəyə qaldırılmış münasibətlərə malikdir. Avropa qitəsinin 10-dan çox ölkəsi mavi yanacağa olan tələbatını Azərbaycan qazı hesabına ödəyir. Bərpaolunan enerji potensialımızın qarşıdakı illərdə xüsusi kabellə Gürcüstan, Qara dəniz, Rumıniya və Macarıstan marşrutu ilə Avropaya çatdırılması qitənin iqtisadi həyatındakı təmsilçiliyimizi daha da dərinləşdirəcək.

Çoxqütblü və müxtəlif istiqamətli iqtisadi və siyasi fəaliyyət yalnız gerçək müstəqilliyə malik dövlətlər tərəfindən həyata keçirilə bilər. Azərbaycanın özünün xarici siyasət fəaliyyətini və gündəmini müəyyən etməsi bizim, həqiqətən də, möhkəm dövlətçiliyə əsaslanan müstəqilliyə malik olmağımız deməkdir. D-8-ə üzvlük bu yöndə imkanlarımızı daha da genişləndirəcək və Azərbaycanın islam dünyasının həyatında daha fəal rol oynamasını təmin edəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin daha bir məntiqi nəticəsi

### İndi Azərbaycan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının da üzvüdür

Yola salmağa hazırlaşdığımız 2024-cü il ölkəmizin tarixində həm də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü seçilməsi ilə qalacaq. Məlum olduğu kimi, D-8-in bu il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində keçirilən XI Sammiti zamanı üzv ölkələrin yekdil qərarı ilə Azərbaycan Respublikasının təşkilata üzv seçildiyi elan edilib.

Üzv ölkələrin əhali sayının ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən və böyük iqtisadi potensiala malik "İslam səkkizliyi" adlanan D-8-in üzvü olmaq ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun, eləcə də ona etimadın daha bir bariz nümunəsidir. Bu, ilk növbədə Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticələrindən biridir.

Bu həm də onunla əlamətdardır ki, təşkilat yarandığı gündən indiyədək ilk genişlənmə hadisəsidir. Xatırladaq ki, D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəsini birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Təşkilatın Katibliyi İstanbul şəhərində yerləşir.

Dövlətimizin başçısı İlham Əliyev ilk dəfə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8-in 2017-ci ildə İstanbulda keçirilmiş IX Zirvə görüşündə iştirak edib. İndi isə Azərbaycan artıq təşkilatın üzvüdür və heç bir şübhə yoxdur ki, ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasında, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq.

Müasir toqquşmalar və siyasi gərginlik fonunda regionumuzda təhlükəsizliyin və sabitliyin təmin edilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir və bu xüsusda geosiyasi mövqeyi, geniş iqtisadi potensialı və müasir nəqliyyat infrastrukturu ilə Azərbaycan özünü etibarlı regional mərkəzlərdən biri kimi təsdiqləyib. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan mühüm enerji layihələrinin həyata keçirilməsində və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində əhəmiyyətli rola malikdir. Bununla yanaşı, ölkəmiz bir sıra beynəlxalq təşkilatlara uğurlu sədrlik etməklə də qlobal problemlərin həllinə öz töhfəsini verir. BMT-dən sonra dünyanın ən böyük təsisatı olan Qoşulmama Hərəkatına 4 illik sədrliyi, eləcə də dünyada ən möhtəşəm tədbirlərdən biri olan COP29 üzrə sədrliyi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunu bir daha bariz şəkildə göstərdi.

D-8-in XI Sammitində ölkəmiz Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Baş nazir tədbirdəki çıxışında diqqətə çatdırıb ki, Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına son qoyaraq, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Eləcə də işğal zamanı azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, ərazilərimizdə urbisid, kultursid və ekosidin törədilməsi, Azərbaycan xalqının mədəni və dini irsinin məhv edilməsi barədə sammit iştirakçılarına məlumat verilib. Hazırda Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, kənd və şəhərlərin tamamilə yenidən qurulduğu bildirilib. Qeyd edilib ki, yeni reallıqlar regionda davamlı sülh və sabitlik, həmçinin qarşılıqlı faydalı əməkdaşlıq üçün unikal imkanlar açır. Azərbaycan regional sülh gündəliyinə sadiqdir və bu istiqamətdə qəti addımlarını davam etdirəcək.

Media Təhlil Mərkəzinin (MTM) analitik qrupunun hazırladığı "D-8 təşkilatına üzvlük Azərbaycanın milli maraqlarına tam cavab verir" məqaləsində vurğulanır ki, Azərbaycanın bu təşkilata üzvlüyü digər üzv ölkələrlə ticarət əlaqələrinin artırılmasına, xüsusən də enerji, kənd təsərrüfatı, sənaye və texnologiya sahələrində daha çox imkan əldə olunmasına kömək edəcək: "Azərbaycan həmçinin bu ölkələrin bazarlarına daxil olmaqla, ixracının şaxələndirilməsinə də nail ola bilər. Bundan əlavə, Azərbaycan digər üzv ölkələrlə iqtisadi əməkdaşlığı dərinləşdirərək xarici investisiyalar əldə edə bilər. Texnologiya və innovasiya sahəsində əlaqələrin gücləndirilməsi, eyni zamanda sosial-mədəni layihələrin icrası da Azərbaycanın təşkilat daxilində mövqelərini möhkəmləndirə bilər. Bu çərçivədə Azərbaycanın da üzv ölkələrə verə biləcəyi çoxlu dividendlər var".

Dekabrın 20-də Milli Məclisin plenar iclasında çıxış edənlər də D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının sammitində Azərbaycanın bu mötəbər beynəlxalq təşkilatın üzvlüyünə qəbul edilməsinin əlamətdar hadisə olduğunu vurğulayıblar. Bildirilib ki, ölkəmiz bu quruma üzv olmaqla islam həmrəyliyinin möhkəmlənməsinə, təşkilatın fəaliyyətinin genişlənməsinə, enerji, kənd təsərrüfatı, nəqliyyat, logistika və texnologiyalar sahəsində əməkdaşlığın genişlənməsinə öz töhfəsini verəcək.

Ölkəmizin D-8 təşkilatına üzvlüyünü bir sıra amillər şərtləndirib, digər tərəfdən onun regional və qlobal siyasi proseslərə təsir imkanlarını gündəmə gətirib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Dekabrın 21-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın 18 dekabr 2024-cü il tarixli iclasının protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin olunmuş bələdiyyə seçkilərində seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası komissiya üzvləri tərəfindən müzakirə edilərək təsdiq olunub. Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin tələblərini əsas götürərək, 6052721 (altı milyon əlli iki min yeddi yüz iyirmi bir) seçki bülleteninin komissiyanın təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında hazırlanmasına qərar verib.

İclasda daha sonra qarşıdan gələn bələdiyyə seçkilərində Respublikaçı Alternativ (REAL) Partiyası, Ağ Partiyası, Gələcək Azərbaycan Partiyası, Ədalət Partiyası, Vəhdət Partiyası, Haqq Ədalət Partiyası, Azərbaycan Demokrat Partiyası, Azad Vətən Partiyası, Müasir Musavat Partiyası və Yeni Zaman Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinə hər bir siyasi partiyanın MSK-ya müvafiq müraciəti barədə ayrı-ayrılıqda məlumat verilib və sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Media subyektləri təmsilçilərinin də iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

QƏRAR № 54/265

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 18 dekabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 18 dekabr tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

QƏRAR № 54/266

### 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 99.1-99.4-cü və 235-ci maddələrinin tələbinə görə, seçki bülletenlərinin mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) qərarı ilə səsvermə gününə ən geci 35 gün qalmış təsdiq edilməli, qeydə alınmış seçicilərin sayının 3 faizindən artıq olmamaq şərtilə, səsvermə gününə ən azı 10 gün qalmış Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin müşahidəsi altında müvafiq qaydada hazırlanmalıdır.

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar mövcud bələdiyyələr üzrə bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnmiş, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilmiş, habelə qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, təxəllüsü, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü), onları irəli sürən subyektlərin adı, siyasi partiyalar, siyasi partiya blokları tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilmiş seçki bülleteninin mətni və forması təsdiq edilməli, ölkə üzrə qeydə alınmış seçicilərin ümumi sayından (məcburi köçkün statusu almış seçicilər istisna edilməklə) 3 faizdən artıq olmamaqla, mətbəə üsulu ilə hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.11-ci, 28.2-ci, 28.4-cü, 99-cu və 235-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar mövcud bələdiyyələr üzrə bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnmiş, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilmiş, habelə qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, təxəllüsü, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü), onları irəli sürən subyektlərin adı, siyasi partiyalar, siyasi partiya blokları tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilmiş seçki bülleteninin mətni və forması təsdiq edilsin.

2. Ölkə üzrə qeydə alınmış seçicilərin ümumi sayından (məcburi köçkün statusu almış seçicilər istisna edilməklə) 3 faiz artıq olmaq şərti ilə, cəmi 6052721 (altı milyon əlli iki min yeddi yüz iyirmi bir) ədəd seçki bülleteni Mərkəzi Seçki Komissiyasının təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında müvafiq poliqrafiya müəssisəsində hazırlansın.

3. Bu Qərarın icrası öz səlahiyyətləri daxilində Mərkəzi Seçki Komissiyasının Katibliyinə həvalə edilsin.

4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

QƏRAR № 54/267

### 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Respublikaçı Alternativ (REAL) Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Respublikaçı Alternativ (REAL) Partiyası Siyasi Komitəsinin 2024-cü il 14 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Respublikaçı Alternativ (REAL) Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Fizuli Məhəmməd oğlu Dehqani
Novruz Muxtar oğlu Əliyev
Mehman Əfsaləddin oğlu Həsənov
Daşqın Abbas oğlu Səmədov

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə
Elçin Mehdi oğlu Qurbanov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

QƏRAR № 54/269

### 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Gələcək Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Gələcək Azərbaycan Partiyası İdarə Heyətinin 2024-cü il 17 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Gələcək Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndə
Ağasif Şakir oğlu İbrahimov

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr
Sirac Amil oğlu Balakişiyev
Coşğun Rəşad oğlu Alıyev
Hüseyn Arif oğlu Qasımov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

QƏRAR № 54/268

### 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Ağ Partiyası İdarə Heyətinin 2024-cü il 14 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Ağ Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Mehdi Xilqət oğlu Ağazadə
Tural Seymur oğlu Bəkirov
Nigarə Mübariz qızı Məmmədova
Camal Maksim oğlu Kazımov
Fərqanə Bəhrəm qızı Həmidova
Ayaz Mahir oğlu Teymurov
Nayıb Bəhrəm oğlu Quliyev
Lila Abdurahman qızı Məmmədova
Rüfət İbrahim oğlu Hacıbəyli
Pərvin İkram oğlu İsrafil
Nərmin Mahir qızı Həsənova
Qələm Fikrət qızı Səmədova
Şəhriyar Nazim oğlu Vəliyev
Səfər Abasağa oğlu Abasov
İkram Müşfiq oğlu Qəzənfərli
İqrar İlqar oğlu Əzizli
Tacəddin Ağakişi oğlu Paşayev
Araz Mahir oğlu Teymurov
Kamran Fərhad oğlu Məmmədli
Rəhim Rüfət oğlu Əhmədzadə
Toğrul Feyruz oğlu Abbasov
Nizami Qələndər oğlu Məmmədov
Yusif Müzəffər oğlu Quliyev
Rəşad Sərdar oğlu Kazımov
Yusif Gündüz oğlu Həsənov

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:
Səddam Saməddin oğlu Nəcəfov
Vüsal Şövkət oğlu Əliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

QƏRAR № 54/270

### 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Ədalət Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Ədalət Partiyası Ali Məclisinin 2024-cü il 16 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Ədalət Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Ədalət Kamil oğlu Qurbanov
Məhərrəm Nüsrətdin oğlu Mustafa
Rasim Mustafakamal oğlu Rəsulov

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:
Əliheydər İlham oğlu Babazadə
Rəşid Məmmədağa oğlu Əliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

QƏRAR № 54/271

### 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Vəhdət Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Vəhdət Partiyası Baş Məclisinin 2024-cü il 16 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Vəhdət Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Zahir Musa oğlu İbrahimli
Aftandil Vahid oğlu Məmmədov
Zaur Kərim oğlu Kərimli
Qərinə Rahman qızı Balayeva

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:
Rəhimə Xəlil qızı Heydərova
Səma Vasif qızı Əfəndi.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

QƏRAR № 54/272

### 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Haqq Ədalət Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Haqq Ədalət Partiyası İdarə Heyətinin 2024-cü il 18 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Haqq Ədalət Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Ağalar Qədim oğlu Məmmədov
Arzu Natiq oğlu Babayev
Firdovsi Tofiq oğlu Bədəlov
Ziyafət Ələkbər oğlu Ələkbərov
Rəşad Fazil oğlu Məhəmmədov
İlyas Vəli oğlu Alıyev
İlham Əmiraslan oğlu Həsənov
Yusif Hüseyn oğlu Allahyarov
Seymur Qurban oğlu Rəcəbov
Natavan Fikrət qızı Qurbanova

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:
Əmir Ziyad oğlu Çıraqəliyev
Məhərrəm Cəfər oğlu Cəfərov
Rəşad Haşim oğlu Abbasov
Samir Qulu oğlu Nəsirov
Əliyar Əliş oğlu Şirməmmədov
Eyvaz Rza oğlu Əliyev
Elçin Valeh oğlu İsmayılov
Zeynal Pirməd oğlu Həmidov
Elçin Hidayət oğlu Abbasquliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

### QƏRAR № 54/273

## 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Demokrat Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Demokrat Partiyası Ali Məclisinin 2024-cü il 18 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azərbaycan Demokrat Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Həsrət Qurbanəli oğlu Rüstəmov
Taliyət Məhəmməd oğlu Əliyev
Nurəddin Mənsim oğlu İsmayılov
Nazilə Cahangir qızı Soltanova
Zakir Hüseyn oğlu Hüseynov
Kamran Yaşar oğlu Nəsirli
Nizami Kamil oğlu Məmmədzadə
Xanım Vüqar qızı Məmmədova

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə
Daşqın Ağarza oğlu Nuriyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

### QƏRAR № 54/274

## 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Azad Vətən Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Azad Vətən Partiyası Siyasi Şurasının 2024-cü il 17 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azad Vətən Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Elxan Məmmədiyyə oğlu Rəhimov
Novruz Barat oğlu Əliyev
Asif Akif oğlu Əliyev
Qazax Akif oğlu Nağı
Əlizamin Zöhrab oğlu Əliyev

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:
Şaiq Vəli oğlu Süleymanov
Fəzli Fizuli oğlu Qasımov
Zaur Zakir oğlu Ələkbərov
Tofiq İsa oğlu Məmmədov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

### QƏRAR № 54/275

## 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Müasir Musavat Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Müasir Musavat Partiyası Siyasi Şurasının 2024-cü il 10 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Müasir Musavat Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Aynur Mütəllim qızı Ağayeva
Turxan Bəxtiyar oğlu Abdullayev
Lalə Tofiq qızı Quliyeva
Rəhim Həsənəli oğlu Qəmbərov
Nargilə Musa qızı Abbasova

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə
Könül Vaqif qızı İsmayılova.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

### QƏRAR № 54/276

## 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Yeni Zaman Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Yeni Zaman Partiyası Mərkəzi Şurasının 2024-cü il 15 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Yeni Zaman Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Elşan Sabir oğlu Ərəbov
Məhəmməd İbrahim oğlu Farazi
Teymur Musa oğlu Ağazadə
Şahin Musa oğlu Quliyev
Maksud Malik oğlu Adizadə

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə
Habil Famil oğlu Ələkbərov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

### QƏRAR № 54/277

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü, 30-cu və 169-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. 20 saylı Nərimanov ikinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Vüqar Vəkil oğlu Cəfərlinin səlahiyyətlərinə 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin nəticələri rəsmi elan olunanadək müvəqqəti xitam verilsin.

2. Yetkin Cavad oğlu Mehmanov 57 saylı Xaçmaz şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*21.12.2024*

## Naxçıvan Muxtar Respublikası - 100

# Nuhun izi ilə





Zaman-zaman çəkilmiş sənədli filmlər tarixin qiymətli gerçəkliklərini qoruyub saxlayır. Ona görə də bu filmlərə həmişə böyük maraq və sevgi ilə baxılır. Çünki bunlar tarixi öyrənmək baxımından çox dəyərli və qiymətli olur.



Dünən Beynəlxalq Muğam Mərkəzində Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə çəkilmiş "Nuhun izi ilə" sənədli filminin təqdimat mərasimi keçirildi. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğulların ruhu birdəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış üçün söz Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərova verildi. O dedi: "Bu gün təqdimatına yığışdığımız "Nuhun izi ilə" filmi Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub. Ötən il dekabrın 30-da Naxçıvan Muxtar Respublikasının 100 illiyinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilmişdir. Bu gün indiyə qədər keçirilmiş mədəni-kütləvi tədbilərə daha möhtəşəm biri də əlavə olunur. Təqdim olunacaq sənədli film UNESCO-nun layihəsi əsasında, həmçinin Azərbaycan Respublikasının İsveç Krallığındakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmişdir. "Nuhun izi ilə" filminin müəllifi və rejissoru isveçli Mikael Silkeberqdir. Xatırladım ki, M.Silkeberq ilk əcnəbi rejissordur ki, Şuşa azad olunandan sonra bu şəhər haqqında film çəkmişdir. Hər iki film çox dəyərli və baxımlıdır. Olduqca sevindiricidir ki, Ulu Öndər Heydər Əliyevin qurub yaratdığı müstəqil Azərbaycan bütün sahələrdə möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında dinamik inkişaf edir. Bu gün təqdim olunan sənədli film böyük mədəniyyət hadisəsidir. Eyni zamanda bu, Ümummilli Lider Heydər Əliyevin həyatını, siyasi fəaliyyətini, irsini, həmçinin müstəqil Azərbaycanımızın şərəfli tarixini, zəngin mədəniyyətini dünyada ləyaqətlə təbliğ edən Heydər Əliyev Fonduna, onun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehiban xanım Əliyevaya gördüyü işlərə görə minnətdarlığın ifadəsidir. Bu gün hamımız Ulu Öndər Heydər Əliyev haqqında böyük sevgi, hörmət və ehtiramla danışırıq. Ulu Öndər Azərbaycanı bugünkü kimi güclü, qüdrətli görmək istəyirdi. Ümummilli Lider Heydər Əliyevin ruhu bu gün şaddır. Çünki bu böyük şəxsiyyətin arzu və istəklərini Azərbaycan Prezidenti İlham Əliyev uğurla həyata keçirir".

Sonra Azərbaycan Respublikasının UNESCO-dakı milli komissiyasının nümayəndəsi Mustafa Şabanov və rejissor Mikael Silkeberq çıxış edərək "Nuhun izi ilə" filminin çəkilişlərindən, ərsəyə gəlməsindən ətraflı söz açdılar.

Çıxışlar başa çatdıqdan sonra "Nuhun izi ilə" sənədli filmi təqdim olundu. Filmin çəkilişləri Haçadağ, Əshabi-Kəhf ziyarətgahı, Əlincə qalası, Ordubad rayonu, Gəmiqaya, Möminə Xatun türbəsi, Nuh peyğəmbərin türbəsi və digər məkanlarda aparılıb. Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş "Nuhun izi ilə" filmi tamaşaçılar tərəfindən böyük maraq və rəğbətlə qarşılanacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto)***
***"Azərbaycan"***

# "100 ilin qəhrəmanları" - zəfərin əbədiyaşar xatirələri








Naxçıvan Dövlət Milli Dram Teatrında Azərbaycan Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilən Tədbirlər Planına uyğun olaraq "Şərq qapısı" qəzetinin hazırladığı "100 ilin qəhrəmanları" adlı kitabının təqdimat mərasimi keçirilib.



Mərasimdə şəhidlərimizin və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov çıxış edərək bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub. Ölkə başçısı cənab İlham Əliyevin 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncam da göstərilən qayğının əyani təzahürüdür. Sərəncama əsasən muxtar respublikanın 100 illik yubileyi bu il ərzində geniş qeyd olundu, bir sıra tədbirlərlə daha yaddaqalan oldu.

Baş nazir qeyd edib ki, igid oğullarımızın qəhrəmanlıq hekayələrinin qələmə alınması, gələcək nəsillərə çatdırılması vacib amildir. Vətəni qanı, canı bahasına qoruyan qəhrəmanlarımızın adlarını, xatirələrini yaşatmaq üçün bu sahədə nümunəvi addımlar atılır. Qələmə alınan hər sətir o zaman xalqın sərvətinə çevrilir ki, o, qəzetdə öz əksini tapsın, kitab halında nəşr edilsin. Təqdimatına yığışdığımız bu kitab da məhz onlardan biridir. "Şərq qapısı" qəzetinin "100 ilin qəhrəmanları" layihəsi çərçivəsində ərsəyə gətirdiyi kitabda da igid oğullarımızın şücaəti öz əksini tapıb. Baş nazir Ceyhun Cəlilov şəhidlərimizin həyat və döyüş yolunu qələmə alıb, yaddaşa köçürməyi özünə borc bilən, kitabın ərsəyə gəlməsində əməyi olanlara, "Şərq qapısı" qəzetinin kollektivinə təşəkkürünü bildirib, Vətən müharibəsi şəhidi İbrahim Vəlizadənin anası Xurşud Vəliyevaya "100 ilin qəhrəmanları" kitabını təqdim edib.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid Amin Gülməmmədovun atası Mais Gülməmmədov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, şəhid leytenant Emin Sadiqovun anası Gülşad Rüstəmova, şəhid İbrahim Vəlizadənin anası Xurşud Vəliyeva çıxış edərək şəhid ailələrinə göstərilən dövlət qayğısına görə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlıq ediblər.

"Şərq qapısı" qəzetinin baş redaktoru, "100 ilin qəhrəmanları" layihəsinin rəhbəri Sara Əzimova, Naxçıvan Dövlət Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, layihənin icraçısı Turan Məmmədlinin çıxışları dinlənilib. Qeyd olunub ki, "Şərq qapısı" qəzetinin "100 ilin qəhrəmanları" layihəsi çərçivəsində ərsəyə gələn kitabda şanlı Vətən savaşında və sonrakı hərbi əməliyyatlarda canından keçib şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın valideynlərinin (Naxçıvan Muxtar Respublikasında yaşayan) övladları haqqında xatirələri yer alıb. 44 cümləyə sığışdırılan hər bir xatirə şəhidlərimizə böyük sevgi və ehtiramın ifadəsidir.

Mərasimdə Naxçıvan Televiziyası və "Şərq qapısı" qəzetinin birgə hazırladığı "100 ilin qəhrəmanları" adlı videoçarxa baxış olub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Paşinyan "sülh" adı altında riyakarlıq edir

2024-cü ilin əvvəllərindən etibarən Azərbaycan ilə Ermənistan arasında normallaşma istiqamətində atılan müəyyən addımlar ilin sonuna doğru sülh müqaviləsinin bağlanacağına olan ümidləri də artırmışdı.

Lakin artıq dekabr ayının üçüncü ongünlüyündəyik və ötən müddətdə məhz Ermənistan tərəfinin, baş nazir Nikol Paşinyanın sülhpozucu davranışları nəticəsində sənəd imzalanmır. Halbuki iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Azərbaycanın obyektiv səbəblərdən irəli gələn şərtlərini yerinə yetirməsi kifayətdir. Amma sözü ilə əməli üst-üstə düşməyən Paşinyan Qərbin maşası qismində bölgəni müharibəyə sürükləmək yönündə fəaliyyət göstərir.

### Konstitusiyanın dəyişdirilməsi istək deyil, obyektiv şərtdir

Ermənistanla Azərbaycan arasında sülh sənədinin 17 maddəsinin 15-i razılaşdırılıb, yalnız ikisi qalıb. Onlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaq, digər maddə isə başqa ölkələrin nümayəndələrini Azərbaycan sərhədində yerləşdirməməklə bağlıdır.

Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibəsində Prezident İlham Əliyev söylədi ki, erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var: "Birincisi, öz konstitusiyasını dəyişməkdir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə obyektiv şərtdir".

Ermənistan 44 günlük müharibədə kapitulyasiyaya məcbur edildi. İşğalçı və təcavüzkar ölkənin hərbi, siyasi, diplomatik cəbhələrdə darmadağın edilməsi, iqtisadi çöküşü, sosial böhran yaşaması İrəvanı sülh müqaviləsini bağlamağa məcbur edir. Ancaq xislətlərindəki erməni hiyləsinə xas davranaraq Ermənistan tərəfi gələcəkdə də Azərbaycana qarşı ərazi iddiası qaldırmağa, yəni əlyeri saxlamağa görə konstitusiyasını dəyişməmək üçün manevrlər etməyə çalışır.

Azərbaycanın sülh müqaviləsinin bağlanması üçün irəli sürdüyü ikinci şərti ATƏT-in Minsk qrupunun ləğvidir. Prezident İlham Əliyev bu məqamla əlaqədar söylədi ki, hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır?

Faktdır ki, keçmiş Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə nizamlanması üçün missiyalandırılan ATƏT-in Minsk qrupu onilliklər boyu məsələ ilə bağlı heç bir irəliyəyönük addım atmayıb. Əksinə, münaqişənin Ermənistanın xeyrinə dondurulmasına çalışıb. Azərbaycanın 2020-ci ildə BMT-nin məlum qətnamələrini yerinə yetirərək döyüş meydanında münaqişəni həll etməsi ATƏT-in bu yarıtmaz qurumunun fəaliyyətinə də de-fakto son qoyub. Bu isə gələcəkdə Azərbaycana qarşı ərazi iddiası sürmək istəyində olan Ermənistanın işinə yaramır və Paşinyan ölü qurumu diriltmək üçün cəhdlər edir.

Müsahibəsində bu məqama toxunan Prezident İlham Əliyev vurğuladı ki, Ermənistanın ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün Azərbaycanla birlikdə ATƏT-ə müraciət etmək istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir.

### "Onlara heç kim kömək etməyəcək"

Azərbaycanın davamlı sülh səylərinin fonunda İrəvan Qərbdən aldığı siyasi və hərbi dəstəklə barışa yox, revanşa hazırlaşır. Cənubi Qafqazda müharibə ssenarisi planlaşdıran kollektiv Qərb Ermənistandan plastarm kimi istifadə edərək bölgəyə hərbi güclərini yerləşdirir. Hazırda Qərbə forpostluq edən və eyni zamanda KTMT üzvü olan Ermənistan bir əlində iki qarpız tutmağın ağır nəticəsi ilə üzləşəcəyini hesaba almır.

Sözügedən müsahibəsində Ermənistanın silahlanması prosesinin sıçrayışla getdiyini söyləyən Prezident İlham Əliyev dedi ki, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dir: "Məncə, bu, fəlakətə aparan yoldur... ...Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək".

Vurğulandığı kimi, hələ də torpaqlarımızda gözləri olan ermənilər hazırkı məqamda sülhdən başqa çıxış yollarının olmadığını bilsələr də, gələcəkdə yenə ərazilərimizə iddia etmək üçün özlərinə müəyyən zəmin saxlamağa çalışırlar.

Paşinyanın bu günlərdə yerli mediaya verdiyi müsahibəsində səsləndirdiyi riyakar fikirlər də bunu deməyə əsas verir. Guya özünü barış tərəfdarı kimi göstərən Paşinyan ağızdolusu sülhdən dəm vurub. 2019-cu ildə "Qarabağ Ermənistandır nöqtə" deyəcək məntiqdə, təfəkkürdə, niyyətdə olan Paşinyanın cəmi 5 il ərzində necə deyərlər, haqqa gəlməsi inandırıcı deyil. O da var ki, bu yola Paşinyan öz istəyi ilə yox, "dəmir yumruğ"un hesabına gəlib.

Bugünkü sülh çağırışlarında da qətiyyən səmimi olmayan Ermənistanın baş naziri Azərbaycan kimi Minsk Qrupunun buraxılması tələbini səsləndirmir. Baş nazir müsahibəsində guya qarşılıqlı məhkəmə iddialarını lazımsız saydığını söyləyir, amma əməldə bunun əksini görürük. Onun sözlərinə görə, sərhədin tam delimitasiyası başa çatdıqdan sonra Ermənistan-Azərbaycan sərhədinin heç bir hissəsində üçüncü qüvvələrin olmasına ehtiyac qalmayacaq. Sərhədlərin delimitasiyası uzun prosesdir və buradan da aydın görünür ki, deməli, Paşinyan üçüncü qüvvələrin olmaması barədə səsləndirdiyi fikirlərində də səmimi deyil. Əslində, həmin qüvvələrin varlığında maraqlıdır.

Gətirdiyimiz nümunələrdən də görünür ki, İrəvan normallaşma prosesinə mane olmaq üçün riyakar gedişlər edir, daha çox sülh müqaviləsinin bağlanmaması üçün fəaliyyət göstərir.

Ancaq bütün hallarda sülhdən yayınması və müharibəyə hazırlaşması Ermənistanı qaçılmaz fəlakətə sürükləyir. Azərbaycan ərazi bütövlüyünü, suverenliyini tam təmin edib, Qarabağda və Şərqi Zəngəzurda nəhəng tikinti-quruculuq işləri aparır. Eyni zamanda həmin bölgələrə Böyük qayıdışı həyata keçirir. Əgər bundan sonra hadisələr "dəmir yumruğ"un işə düşməsi istiqamətində inkişaf edəcəksə, bunun məsuliyyəti yenə də Ermənistanın və onu silahlandıraraq qızışdıran Qərb ağalarının üzərinə düşəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



## Azərbaycanın prinsipləri dəyişməzdir

Müstəqil xarici siyasət yürüdən Azərbaycan atdığı hər bir addımla prinsiplərinin dəyişməz olduğunu təsdiq edir. Tarixi Zəfərimizdən, ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etdikdən sonra ölkəmizin beynəlxalq aləmdə rolu daha da artıb.



Prezident İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində bu reallığı bir daha vurğuladı. Dövlət başçısı Azərbaycanın istər Qərbdə, istərsə də Şərqdə müstəqil siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev müsahibəsində olduqca əhəmiyyətli, çox vacib mesajlar verdi. Müsahibədə dövlət başçısı Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyədə olduğunu vurğuladı: "Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur". Prezident İlham Əliyev Qərblə Rusiya arasında gərginliyin aradan qaldırılması ilə bağlı Azərbaycanın mövqeyini açıqladı. Geniş müsahibədə respublikamızın hazırkı gərgin beynəlxalq münasibətlər sistemindəki roluna nəzər saldı.

Dövlət başçısı sülh danışıqlarının gedişi, Ermənistanın silahlanması, Fransanın müstəmləkəçilik siyasəti, ölkəmizə qarşı Qərbin apardığı qarayaxma kampaniyasının iflasa uğaradılması və digər mühün məsələlər barədə dolğun və əhatəli məlumatlar verdi. "Nikol Paşinyan KTMT ilə münasibətlərində geri dönüşün olmadığını açıqlayıb, Fransa ilə münasibətləri fəallaşdırır. Bu, regional təhlükəsizlik, xüsusən də Azərbaycan üçün nə deməkdir?" sualına cavabında Prezident İlham Əliyev diqqətə çatdırdı ki, bu, birbaşa təhlükə deməkdir, biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarımda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq: "Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqəsi sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil". Dövlətimizin başçısı Fransanın bu məsələdə liderlik etdiyini, ikinci yerdə Hindistanın, üçüncü yerdə isə ABŞ-nin olduğunu qeyd etdi. Bildirdi ki, Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, ABŞ isə bunu etiraf etmir.

Dövlət başçısı Ermənistana və onun havadarlarına Ermənistanın silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına baxmayaraq, Azərbaycanla silah yarışında tab gətirməyəcəyi mesajını verdi: "Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək".

Azərbaycan yalnız öz ərazilərində deyil, bütün dünyada sülhün, sabitliyin bərqərar olmasını, dostluğun, qarşılıqlı əməkdaşlığın qurulmasını və möhkəmlənməsini arzulayır və hər zaman bunlara səy göstərir. Prezident İlham Əliyev müsahibəsində xatırlatdı ki, prinsipcə, bizim Fransa ilə heç vaxt problemimiz olmayıb: "Hətta deyərdim ki, Fransa ilə hər hansı bir Avropa ölkəsindən daha çox əməkdaşlıq edirdik". İkinci Qarabağ müharibəsi başlayandan sonra onların açıq şəkildə işğalçıların tərəfini tutduqlarını qeyd edən dövlət başçısı nəzərə çatdırdı ki, bu, ilk belə siqnal idi ki, münasibətlərimizdə heç də hər şey qaydasında deyil: "Lakin onların tərəfindən verilən siqnal idi. Sonra onlar bu nəticələri hər halda qəbul etməyə məcbur oldular, amma bununla yanaşı, əllərindən gələni etdilər ki, prosesə zərər versinlər".

İşğalçı Ermənistanın tərəfini saxlayan Fransa "ədalət", "demokratiya" deyə dünyaya səs salmağa çalışsa da, əslində, buna inanan yoxdur. Çünki əsrlərdir ki, qəsbkarlıq siyasəti həyata keçirir. Müstəmləkəsi altında saxladığı ölkələrin təbii ehtiyatlarını amansız istismar edir, yerli xalqlara divan tutur, onları qanuni haqqlarından, hüquqlarından məhrum edir. Zəngin təbii sərvətlərə malik olan həmin ölkələrin əhalisinin böyük hissəsi hətta yoxsulluq həddindən də aşağı səviyyədə yaşayır. Həmin xalqların haqlarını tələb edən nümayəndələri isə Makron hökuməti tərəfindən həbs edilir, işgəncələrə məruz qalırlar: "Təbii ki, biz hüquqları olmayan bu xalqlara ürəkağrısı ilə yanaşırıq. Avropanın mərkəzində - Korsikada onlar Korsika dilini qadağan edirlərsə, bu dilin ictimai yerlərdə istifadəsinə icazə vermirlərsə, o zaman Yeni Kaledoniya haqqında nə demək olar? Bu, nəyə yarayar? Bu demokratiyadır? Bu, insan hüquqlarıdır?" - dövlət başçısı dedi. Bildirdi ki, Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub, amma indi belə deyil, hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir.

Dünya ictimaiyyəti işğalçılıq, müstəmləkəçilik siyasəti yürüdən dövlətləri görür, tanıyır. Onların siyasətinin iflasa uğradığı da artıq göz önündədir. Azərbaycan isə belə dövlətlərin yaratdıqları süni maneələrə rəğmən öz yolu ilə inamla, əminliklə addımlayır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## "Makron rejimi Fransanı uğursuz dövlətə çevirib"

İkinci Qarabağ müharibəsinin reallıqlarından biri Fransanın özünü ifşa etməsi oldu. Müharibənin ilk günlərindən bu günə qədər Prezident Emmanuel Makron ölkəsinin neytrallığını unudaraq tam ermənipərəst siyasət yürütməkdədir. Əlbəttə, onun bu addımları Prezident İlham Əliyevin qətiyyətli mövqeyi qarşısında iflasa uğrayır.

Fransanın dövlət səviyyəsində Ermənistana "sevgisi" anlaşılandır. Bu ölkədə erməni lobbisi bir çox məsələni həll edə bilir. Fransa Prezidenti də, ölkənin parlamenti də maraqlarını erməni lobbisinin, ermənipərəst dairələrin istəklərinə uyğunlaşdırıb. Bu isə Fransanın bir dövlət kimi nüfuzunu əhəmiyyətli dərəcədə zədələyib.

Fransadakı erməni lobbisini və onların tapşırıqlarına uyğun davranan Makronu Azərbaycanın postmüharibə dövründə belə beynəlxalq səviyyədə nüfuza sahib olması ciddi narahat edir. Məlum olduğu kimi, artıq Qərb və bəzi Avropa ölkələri dünya siyasi arenasında öz dominantlığını itirməkdədir. Dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyinə müsahibəsində Prezident İlham Əliyev qeyd edib ki, Makron hökumətinin əsassız olaraq özünü böyük sayması onları uçuruma yuvarlatdı. Çünki İkinci Qarabağ müharibəsi başlayanda onlar açıq şəkildə işğalçıların tərəfini tutdular. Dövlət başçısı əlavə edib ki, bu yaxınlarda Baş nazir vəzifəsindən qovulmuş Barnye hələ 2020-ci ildə fransız siyasətçisi qismində Qarabağa qanunsuz şəkildə səfər etmişdi. Yəni bütün bu müdaxilə cəhdləri ona gətirib çıxardı ki, münasibətlər sadəcə böhran həddinə çatdı, sonradan daha da pisləşdi: "2023-cü ilin sentyabrından sonra onlar beş dəfə bu məsələni Təhlükəsizlik Şurasına daşımağa cəhd etdilər və beş dəfə də uğursuzluğa düçar oldular. Bizi dəstəkləyən ölkələrin sayı onlara həmin məsələni hətta iclasın gündəliyinə salmağa da imkan vermədi. Sonra onlar başqa yolla getdilər, - necə deyərlər, biz başqa yolla Avropa İttifaqına gedirik, - Azərbaycana qarşı sanksiyalara cəhd etdilər. Nəyə görə? Ona görə ki, biz öz suverenliyimizi bərpa etmişik? Burada da uğursuzluğa düçar oldular. Bizə qarşı kinləri, necə deyərlər, daha çox artdıqdan sonra isə onlar indi bizi nüfuzdan salmaq üçün bütün metodlardan istifadə edirlər".

Həqiqətən də, Fransa Prezidenti həm müharibə günlərində, həm də ondan sonra göstərdi ki, haqsızlığın və işğalçının yanındadır. Mütəmadi olaraq dövlətimizin daxili işlərinə qanunsuz müdaxilə etmək üçün cəhdlər edir. Həmçinin regionda süni gərginlik yaradaraq Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına mane olmağa çalışır.

Fransa hakimiyyət orqanları başqa dövlətlərin işlərinə qarışmaqdansa, özlərinin daxili problemlərinə, habelə ölkədə hökm sürən ksenofobiya, islamofobiya, irqi və milli nifrət mühitinə, iyrənc müstəmləkə keçmişinin hələ də mövcud olan qalıqlarına fokuslanmalıdırlar. Fransada qeyri millətlərdən olan şəxslərin hüquqlarına qarşı etinasızlıq hökm sürdüyü halda, həmin ölkənin icra və qanunvericilik orqanlarının nümayəndələrinin ermənilər üçün canfəşanlıq göstərmələri siyasi şoudan başqa bir şey deyil.

Hər kəsə məlumdur ki, Fransada etnik azlıq və onların haqlarının müdafiəsi anlayışı qəbul edilmir. Bu ölkə işğal etdiyi Korsika adasında yerli xalqın dilini tanımır, dənizaşırı ərazilərdə hələ də müstəmləkəçilik siyasəti yürüdür və həmin xalqların hüquq və azadlıqlarına hörmət etmir. Bu azmış kimi, "insan haqlarının müdafiəçisi" roluna girib, guya digər regionlarda yaşayan hansısa azlıqlar üçün xüsusi hüquqlar tələb edir.

Kolonializm təfəkküründən qurtala bilməyən Fransanın bu davranışı



bir daha sübuta yetirir ki, bu ölkə siyasi riyakarlığından əl çəkmir. Son aylarda Afrikada Fransa əleyhinə baş verən hadisələr də onun bu "humanist" davranışlarının müstəmləkə siyasətinə xidmət etdiyini açıq-aydın ortaya qoyur. Buna toxunan Prezident İlham Əliyev bildirib ki, hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir: "...Baxın, bir neçə misal çəkəcəyəm: Afrikada, Sahel regionunda iflas. Onlara "Əlvida!" dedilər. Niger, Burkino-Faso, Mali. Növbədə Çaddır, bu ölkə artıq onlardan çıxmağı tələb edir. Seneqal - burada prezident dəyişdi və milli ruha malik insan gəldi. Bu, hələ başlanğıcdır. Livanda uğursuzluq, Azərbaycanda tam iflas, Gürcüstanda iflas. Diqqət yetirin, daxili siyasətdə nələr baş verir? Hərc-mərclik! Yeni Baş nazir təyin olunur. Onun əri və ya arvadı, bilmirəm, onlarda bunların hansıdır, xarici işlər naziri təyin edilir. Avropa Parlamentinə seçkilərdə uğursuzluqdan sonra onları "günah keçisi" edirlər. Naftalindən çıxarılmış Barnye təyin olunur və onu da qurban verirlər. İndi yenə kimisə tapırlar. Olmazmı ki, elə özündən başlasın?"

Fransa əvvəldən Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində qərəzsiz və tərəfsiz mövqe tutmayıb, əksinə, vəziyyəti gərginləşdirmək üçün nə bacarıbsa, həyata keçirib. Azərbaycan isə sülh və sabitliyin təminatı üçün konstruktiv dialoqlara sadiqdir. Prezident Makronun erməni sevdasına uyub mütəmadi pafoslu bəyanatlar səsləndirməsi ucuz kampaniyadan başqa bir şey deyil.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Şuşa şəhərinə növbəti köç karvanı yola salınıb











**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Şuşa şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.**



AZƏRTAC xəbər verir ki, bu mərhələdə Şuşa şəhərinə 49 ailə - 191 nəfər köçürülüb. Doğma yurda qayıdan Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər.

Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

❖ ❖ ❖

Şuşaya çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub. Doğma yurduna qovuşanlara açarların təqdim edilməsi mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər. Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.



## *Keçmiş məcburi köçkün:* "Şuşaya geri qayıdacağıma inanırdım"

"Otuz iki ildir yurd həsrəti çəkirdik. Axır ki, bu gün torpaqlarımıza qayıdırıq. Sevincimizin həddi-hüdudu yoxdur".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Şuşaya köçən sakin Həsən Zülfiqarov söyləyib. Şuşaya geri qayıdacağına hər zaman inandığını deyən keçmiş məcburi köçkün bir vaxtlar orada döyüşdüyünü bildirib. "Şuşanın azad edilməsində canını fəda edən şəhidlərimizə Allahdan rəhmət diləyirəm, qazilərimizə şəfa arzulayıram. Azərbaycan xalqı, dövləti hər zaman var olsun", - deyə o vurğulayıb.

## *Şəms MƏMMƏDOVA:* "Artıq illərdir davam edən yurd həsrəti sona çatır"

"Şəhidlərimizin sayəsində bu gün torpaqlarımıza qayıdırıq. Şəhid qızı kimi çox xoşbəxtəm ki, Şuşaya geri dönürük".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Şuşaya geri qayıdan keçmiş məcburi köçkün Şəms Məmmədova söyləyib.



"Şuşadan məcburi köçkün düşəndə dörd yaşım var idi. Bu gün isə övladlarımla birlikdə Şuşaya qayıdırıq. Şuşa mənim xatirəmdə əvəzolunmaz şəhər kimi qalıb. Hər zaman inanırdım ki, torpaqlarımız işğaldan azad ediləcək və biz orada yaşayacağıq", - deyə keçmiş məcburi köçkün vurğulayıb.

Müəllimlik peşəsini Şuşada davam etdirmək istədiyini deyən Ş. Məmmədova artıq illərdir davam edən yurd həsrətinin sona çatdığını bildirib.



## *Şuşaya köçən sakin:* "Geri qayıtmaq olduqca qürurvericidir"

"Ailəm ilə birlikdə Şuşadan məcburi köçkün kimi ayrılmışdıq. Bu gün isə şəhidlərimizin, qazilərimizin sayəsində ailəmizlə Şuşaya qayıdırıq".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Şuşaya köçən sakin Əsli Zülfiqarova söyləyib. Şuşanın alınmasını eşidəndə çox sevincli və həyəcanlı olduğunu deyən Ə.Zülfiqarova əlavə edib ki, geri qayıtmaq onlar üçün olduqca qürurvericidir.

# Bakı qışa necə hazırlaşır?

**Hidrometeoroloqlar bu qışın Azərbaycanda sərt keçməyəcəyini, havanın orta temperaturunun çoxillik normaya yaxın olacağını proqnozlaşdırırlar.**













Ötən gün saat 13:20:30-da ölkəmizə daxil olan qış fəslində yağıntının miqdarının da normaya yaxın, bəzi yerlərdə bir qədər az olacağı qeyd edilir. Hər il olduğu kimi, bu il də Bakıda əsasən yanvar və fevral aylarında qışın sərt üzü ilə qarşılaşa bilərik. Bu baxımdan bəzi dövrlərdə hava şəraitinin şaxtalı və qarlı keçməsi proqnozlaşdırılır.

Təbii ki, qarlı və şaxtalı hava şəraiti xüsusən meqapolislərdə müəyyən çətinliklər yaratmaqla hərəkəti məhdudlaşdırır. Bu baxımdan Bakıda payız aylarından etibarən kəskin hava şəraitinə hazırlıqlar görülür.

Paytaxtda qışa hazırlığın vəziyyəti ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinin tapşırığına əsasən, şəhərin rayonlarında kommunal təsərrüfat xidmətlərinin, idarə və təşkilatların, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir. Müşavirələrin əsas məqsədi isə rayon təsərrüfat xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığının vəziyyətinin araşdırılmasıdır.

Bu il paytaxtda qışa hazırlıqla bağlı hansı işlərin görüldüyünü, qartəmizləyən texnikaların işləkliyi, həmçinin duz tədarükünün hansı həcmdə olduğunu, Bakının sərt hava şəraitinə necə hazırlaşdığını Bakı Şəhər İcra Hakimiyyəti Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təchizat İdarəsinin rəisi Mübariz Hüseynovdan öyrəndik.

İdarə rəisi qəzetimizə açıqlamasında bildirdi ki, sentyabr ayından Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtda qarlı havalara hazırlığın vəziyyəti ilə bağlı kommunal təsərrüfat xidmətləri, idarə və təşkilatların, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə vaxtaşırı müşavirələr keçirilib və qışa hazırlıqla bağlı aidiyyəti üzrə hər birinə göstərişlər verilib: "Müşavirələrdə rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığının vəziyyəti araşdırılıb, görülməsi zəruri işlər müzakirə edilib. O cümlədən Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təchizat İdarəsinə xüsusi təyinatlı texnikalar vasitəsilə Bakı şəhərinin əsas yollarının qar və buz örtüyündən duz səpilərək təmizlənməsi və kürünməsi tapşırılıb. Həmin vaxtdan idarənin balansında olan 60-dan çox qış texnikası təmir edilib, texniki baxışdan keçirilib və hər biri saz vəziyyətə gətirilib. Hazırda həmin maşın və mexanizmlər start xəttindədir".

M.Hüseynov qeyd etdi ki, müşavirələrdə əsas, köməkçi məhəllədaxili yolların, səkilərin qardan vaxtında təmizlənməsi üçün cavabdeh təşkilatlar müəyyənləşdirilib. Rayonlardakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb. Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumlar, bələdiyyələr, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin qarlı günlərdə özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştiraklarına çağırış edilib.

İdarə rəisi söylədi ki, Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təchizat İdarəsi qarlı, şaxtalı havalarda sutkalıq növbəli iş rejimi ilə fəaliyyət göstərəcək: "Sutkalıq iş rejimində hər bir rayon üzrə vəziyyəti nəzarətdə saxıamaq üçün işçi qrupları yaradılıb. Xüsusi qış geyimi ilə təchiz edilmiş işçilərin hər biri təlimatlandırılıb. Onların qalması üçün idarədə kazarmalar əvvəldən mövcud olsa da, hər biri yenidən təmir edilərək, istilikverici aqreqatlar quraşdırılıb. Həmin operativ işçi qruplar Bakı Şəhər İcra Hakimiyyətində yaradılmış qərargahla mütəmadi olaraq əlaqə saxlaya bilirlər".

Hazırda kifayət qədər duz ehtiyatının olduğunu deyən M.Hüseynov bildirdi ki, şəhərdə müəyyən olunmuş dislokasiyalar üzrə maşınlar təyin edilib və hər bir rayon üzrə duz anbarları yaradılıb. Ərazidə işin operativ aparılması üçün xüsusi yükləyici texnikalar duz anbarlarının yanında dayanaraq, lazım olduğu təqdirdə yüklənərək, buz bağlamış, qar yağmış yollara duz səpirlər. "İşimizə adətən gecə saatlarından başlayırıq ki, bununla piyadaların və nəqliyyat vasitələrinin hərəkətinin intensivliyi pozulmasın. Beləliklə, səhərə qədər yolları qardan təmizləyərək nəqliyyat vasitələrinin maneəsiz hərəkətinə şərait yaradırıq".

Verilən məlumatlara əsasən deyə bilərik ki, Bakı qışın sərt üzünə artıq hazırdır. Amma hazırlıqla yanaşı, hərəkət iştirakçılarının da qarlı, şaxtalı havalarda diqqətli olması və məsuliyyətli davranmaları mütləqdir. Soyuğa, şaxtaya baxmayaraq, hər kəs kimi, Bakı sakinləri də paytaxtımızı ağ örpəyə bürüyəcək qarın yağmasını səbirsizliklə gözləyir. Qar təmizlik, saflıq, bərəkət rəmzidir. Yeni il ərəfəsində yağan qar isə insanlara bayram hədiyyəsi olacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Avropa terrora təslim olur

## "Qoca qitə"də terror hücumlarının və cəhdlərinin sayı dörd dəfə artıb

**Almaniyanın Maqdeburq şəhərində təşkil olunmuş Milad yarmarkasında terror aktı törədilib. Meriya yaxınlığındakı köhnə bazarda bir nəfər avtomobilini Yeni il hədiyyələri almağa gələn camaatın üstünə sürüb. Çoxlu sayda insanın yaralandığı bildirilir. Həlak olanlar da var.**

Hücum faktını Almaniya hökumətinin sözçüsü Matias Şuppe təsdiqləyib. Polis 80 nəfərin yaralandığını bildirib. Onlardan 15-nin vəziyyəti ağırdır. Saksoniya-Anhalt federal əyalətinin baş naziri Rayner Haseloffun sözlərinə görə, terror aktı nəticəsində biri azyaşlı uşaq olmaqla iki nəfər dünyasını dəyişib. Terrorçu hücumdan dərhal sonra saxlanılıb.

"Die Welt" qəzetinin məlumatına görə, hücum edən 1974-cü il təvəllüdlü kişidir. O, Səudiyyə Ərəbistanından 2006-cı ildə Almaniyaya gəlmiş həkimdir.







Həftəlik "Der Spiegel" 50 yaşlı şübhəli Taleb əl-Abdulmohsenın psixiatr və psixoterapevt olduğunu aydınlaşdırıb. "Frankfurter Rundschau" qəzeti onun haqqında hələ 2019-cu ilin martında yazmışdı: "Taleb əl-Abdulmohsen 2006-cı ildən Almaniyada yaşayır. O, psixoterapevt ixtisası almaq üçün Almaniyaya ziyarətçi həkim kimi gəlib və dindən uzaqlaşdıqdan sonra vətənində ölümlə hədələndiyi üçün sığınacaq istəyib. 44 yaşlı həkimin siyasi qaçqın statusu var".

Ekspertlər baş verənləri ilk növbədə Yaxın Şərqdəki hadisələrlə əlaqələndirirlər. Solingen şəhərində Almaniyaya sığınacaq üçün müraciət edən 26 yaşlı suriyalı gəncin avqustun 23-də şəhər festivalı zamanı 3 nəfəri bıçaqladığı və 8 nəfəri yaraladığı iddia edilən qırğından sonra İslam Dövləti (İD) terror qruplaşması bu hücum üçün məsuliyyəti öz üzərinə götürüb.

Bununla belə İŞİD-in məsuliyyətini üzərinə götürdüyü ən böyük terror aktı Qərbi Avropada deyil, 2024-cü ilin martında Moskvada baş verib, o zaman Crocus City Hall konsert zalında törədilən terror aktı nəticəsində 140-dan çox insan həlak olub.

Ekstremizmin qarşısını almaq və zorakı cinayətkarları deradikallaşdırmaq üçün işləyən Zorakılığın Qarşısının Alınması Şəbəkəsinin (VPN) eksperti Tomas Müke deyir: "Ekstremistlər Yaxın Şərqdəki mövcud münaqişədən qüvvələri səfərbər etmək üçün istifadə edirlər. 2023-cü il oktyabrın 7-dən etibarən Qərbi Avropada terror hücumlarının və hücum cəhdlərinin sayında dörd dəfə artım qeydə alınıb".

Solingen qətliamı bir neçə həftə ərzində Avropada baş verən bir sıra hücum və hücum cəhdlərindən biridir. Lakin İŞİD-in həmişə onların arxasında olub-olmadığı bəlli deyil və baş verən bütün hadisələrdə ancaq radikal islamçıları günahlandırmaq qərəzli mövqedir.

Solingen hücumu ilə eyni gündə Fransanın cənubunda iki minalanmış avtomobil partladılıb.

Amerikalı müğənni Teylor Sviftin avqustun əvvəlində Vyanada planlaşdırılan konsertindən bir müddət əvvəl Avstriya hakimiyyəti iki nəfəri həbs edib. Avstriya Dövlət Təhlükəsizlik və Kəşfiyyat İdarəsi bildirib ki, əsas şübhəli Şimali Makedoniya əsilli 19 yaşlı avstriyalı həbs edilərkən "özünü və mümkün qədər çox insanı öldürmək" istədiyini deyib. Sviftin konsertləri ləğv edilib.

Mayın sonunda Almaniyanın cənubundakı Mannheym şəhərində bir əfqan kişi polis əməkdaşını öldürüb və daha beş nəfəri ağır yaralayıb.

7 oktyabr 2023-cü ildən bəri Qərbi Avropada 8 terror aktı və 21 cəhd və ya planlaşdırılan hücum rəsmi olaraq qeydə alınıb. Tomas Mükenin sözlərinə görə, bu dalğa gözlənilməz deyil: "İD təbii olaraq qorxu yaymaq və cəmiyyəti parçalamaq məqsədilə Qərbi Avropanı hədəfə alıb ki, onlar öz sıralarına daha çox insan cəlb etsinlər".

Ekspertlər hesab edirlər ki, Avropa artıq terrora təslim olub. Bunun əsas səbəblərindən biri də avropalıların miqrantların assimilyasiyasına töhfə vermək istəməməsidir. Bu, müsəlmanlara və digər dini etiqadlı miqrantlara qarşı zülm və ayrı-seçkiliyə gətirib çıxarır, nəticədə onlar terrorçuya çevrilirlər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Bazar günü etüdü



# Bir ovuc torpaq...

*Torpaq! Necə də ülvi, necə də gözəl ad. Bu söz dilimizdə çiçək açan kimi sanki bulaq suyuna çevrilib şırıl-şırıl ürəyimizə axır, qanımıza hopur. Bu şirin, şəkər söz dodaqlarımızdan qopub dünyaya yayıldıqca gözlərimiz önündən şumlanmış torpaq sahələri, yaşıllığa bürünmüş geniş çöllər, dağlar, dərələr gəlib keçir. Ürəyimiz, qəlbimiz könül oxşayan belə gözəl mənzərələrdən rahatlıq tapır.*

*Torpaq şumlananda onun qoxusunu hiss etmisinizmi? Yağışdan sonra onun ətrini ürəkdolusu ciyərlərinizə çəkmisinizmi? Belə xoş anları yaşamısınızmı? Torpağın bu qoxusunu, bu ətrini insan unuda bilmir. Deməli, qoxusundan doymadığımız güllər, çiçəklər də ətrini torpaqdan alır.*

*Torpaq əcdadlarımızdan bizə miras qalmış əmanətdir. Torpaq həm əkin-biçin yerimiz, həm də namus və şərəfimizdir. Torpaq ucadan uca olan Vətənimizdir. O Vətən ki, biz onun qoynunda dünyaya göz açır, yaşayır, boy atır, güc alırıq. Torpaqla ilk "görüşümüz" körpəlikdən başlayır. Bələkdən çıxmış ay parçası kimi ağappaq ayaqlarımız torpağa dəyəndə sevinirik. Sevinə-sevinə də güclənirik. Sevincimizi qığıltılara çevirib asta-asta torpağa səslənirik. Deyirik ki, torpaq, sən nə qədər ətirli və şirinsən, nə qədər gözəl və bərəkətlisən. Səsimizdən, nəfəsimizdən, qığıltımızdan, pıçıltımızdan xoşu gəlir. Bu anlarda onun qəlbindən, ürəyindən sevinc yüksəlir.*

*Torpağı sevməmək mümkün deyil. Axı torpağa həm də ana deyirik. Torpağımızı da, anamızı da göz bəbəyimiz kimi qoruyuruq. Onu qoruduqca mətinləşirik, məğrurlaşırıq, mübarizləşirik, qəhrəmanlaşırıq. Damarlarımızda axan qanımız coşub-daşır. Torpaq uğrunda canımızdan da keçməyə hazırıq. Türk şairi Cemal Kuntay gözəl deyib: "Torpaq, əgər uğrunda ölən varsa Vətəndir". Hisslərimizi coşduran, qəlbimizi riqqətə gətirən bu misra özündə Vətənə, torpağa məhəbbəti, qəhrəmanlığı, şəhidliyin müqəddəsliyini əks etdirir. Bu misrada torpağa sevgi ilə yanaşı, onu qorumağa güclü bir çağırış da var.*

*Kövrək addımlarımızı atdığımız torpaq bizim üçün anamız qədər müqəddəs və əzizdir. Müqəddəs olduğu üçün onu əzizləyə-əzizləyə ürəyimizdən şırıltı ilə axıb gələn, qəlbimizdən süzülən qürurlu səslə, isti nəfəslə "Ana torpaq" deyirik. Bu sözdən böyük iftixar, yenilməzlik duyuruq. Mehribancasına, ruhuna toxunmadan, xətrinə dəymədən "Ana" və "Torpaq" sözlərini birləşdiririk. Onu ucalıqlara qaldırıb doğmalaşdırırıq, ülviləşdirib müqəddəsləşdiririk.*

*"Ana torpaq" kəlməsi bizə əziz olduğu qədər də doğmadır. Doğma olduğu qədər də əzizdir. Bu əzizlik, bu doğmalıq ruhumuzdan qidalanır, ürəyimizdən süzülüb gəlir. Bizə ana olan torpaq ılıq qoynunda ürək açıqlığı ilə hamımıza yer ayırır, əlimizdən tutub böyüdür. Bar-bərəkətini, naz-nemətini kimsədən əsirgəmir. Elə buna görə ikisini də ürəkdən sevirik, ikisinə də qəlbən, ruhən bağlanırıq. Bu bağ möhkəmdir, bu bağ polad kimi əyilməz, dağlar kimi vüqarlı, bulaq suyu kimi tərtəmizdir. Buna görə də iftixarla "Ana torpaq" deyirik.*

*Heç ana ilə torpağın danışdığını eşitmisinizmi? Bu barədə haradasa, nəsə oxumusunuzmu? Dünyaca məşhur Çingiz Aytmatovun "Ana tarla" povestini oxuyanda heyrətlənməyə bilmirsən. Ana torpaqla danışır, onunla dərdləşib söhbətləşir. Ana torpağın dilini başa düşür, torpaq da ananın. Beləcə bir-birlərini anlaya-anlaya dərdləşirlər. Deməli, ikisi də bir kökdən qopub, bir boydan boylanıb. Əzəmətli bir ağacın ayrılmaz budağı, qartalın qoşa qanadıdırlar. Buna görə də onları qoşalaşdırıb "Ana torpaq" deyib əzizləyirik.*

*Babalarımız torpaqlarını həmişə göz bəbəkləri kimi qoruyublar. Qoruyublar ki, Vətənləri olsun. Qoruya-qoruya da torpağı seviblər. Sevə-sevə də əkib-becəriblər. Ulu Dədə Qorqud deyirdi ki, torpağı əkib-becərə bilmirsənsə, qorumağa dəyməz, qoruya bilmirsənsə, əkib-becərməyə dəyməz. Torpaq zaman-zaman yadellilərdən qorunub. Cəsur oğullar həmişə torpaq uğrunda vuruşub, çarpışıblar. Biliblər ki, torpaq qan ilə suvarılanda Vətən olur.*

*Müdriklərimiz özlərindən sonrakı nəsillərə vəsiyyət edərək "Ana dilinizi, vicdanınızı və Vətəninizi qoruyun" demişlər. Hər birimiz üçün müqəddəs olan vətənimizi qorumaq ən şərəfli borcumuzdur. Şərəfli borcunu elə şərəflə də yerinə yetirən ordumuzun qəhrəman zabit və əsgərləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ana Torpağımız, Vətənimiz uğrunda döyüşlərə getdilər. Cəsarətlə, qəhrəmanlıqla vuruşaraq yurdumuzu erməni işğalından azad etdilər. Bu gün Vətənimiz göz bəbəyimiz kimi qorunur. Ana torpağımız rahat nəfəs alır. Qoy Vətənimiz həmişə var olsun, Ulu Tanrı hamımıza yar olsun!*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

## *2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*






















*Fotolar İlham BABAYEVİNDİR*

# Mənim sualım var

*Elm adamıyam. 1992-ci ildə bağçılıq-yoldaşlıq təsərrüfatının üzvü kimi mənə Ləhiş bağ massivində torpaq sahəsi ayrılıb. 12 sot torpaq sahəsinə orderim var. İndi torpağa dair çıxarış almaq istəyirəm, amma Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri (DƏDKR) imtina yazıb ki, ərazinin hasarı yoxdur. İkinci dəfə "ASAN xidmət"ə müraciət etdim. Əraziyə baxış keçirildi. Dedilər ki, yanından yol keçir, hasar yoxdur, koordinatları göstərə bilmərik. Yenə imtina cavabı aldım. Məsələ ilə bağlı məhkəməyə müraciət edə bilərəm?*

***A.ƏLİYEV,***
***Bakı şəhəri***

Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsaslar və qaydalar "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq tənzimlənir. Həmin əsaslar 2007-ci il mayın 22-dək müvafiq icra hakimiyyəti orqanlarının nəzdində olan bağ təsərrüfatı idarələri tərəfindən vətəndaşlara ayrılmış bağ sahələrinə dair verilən icarə müqavilələri, sərəncamlar və orderlər, kollektiv bağçılıq-yoldaşlıq təsərrüfatının üzvlərinin siyahısına müvafiq olaraq verilmiş üzvlük kitabçası və ya üzvlərin iclasının protokolundan çıxarışdır. Qeyd olunan sənədlərdən başqa, siz "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun 10.2-ci maddəsinə əsasən, torpaq sahəsinin planı və ölçüsü; torpaq sahəsində bina, qurğu, tikililərin və digər daşınmaz əmlak (onların tərkib hissələri) yerləşirsə, onların texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə sənədi hüquqlarınızın qeydiyyatı ilə bağlı DƏDKR-ə ünvanlanacaq ərizəyə əlavə etməlisiniz.

Əgər torpaq sahəsinin plan və ölçüsü yoxdursa, onun alınması üçün siz "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun 6.1.5-ci maddəsinə əsasən, mərzçəkmə işlərinin görülməsi ilə bağlı DƏDKR-ə müraciət etməlisiniz.

Göründüyü kimi, vətəndaşdan yuxarıda qeyd olunan sənədlərdən başqa digər - hasar çəkilməsi və s. kimi işlərin görülməsinə dair sənədlər tələb oluna bilməz.

Vətəndaş üçün tələb, dediyimiz kimi, adıçəkilən qanunun 8-10-cu maddələrində qeyd olunan sənəd və qaydalardır.

Əgər müraciətiniz yuxarıdakı meyarlara cavab verməsinə baxmayaraq, inzibati orqandan imtina cavabı almısınızsa, siz inzibati prosessual qanunvericiliyə uyğun olaraq, həmin qurumdan Bakı İnzibati Məhkəməsinə şikayət edərək inzibati orqanın üzərinə öhdəlik qoyulması ilə bağlı tələb irəli sürə bilərsiniz. Əlavə edək ki, əgər əlinizdə torpağın plan-cizgisi yoxdursa, bununla bağlı dövlət arxivinə də müraciət edilə bilər.

Məhkəmə bir qayda olaraq orqanın üzərinə qeydiyyat üçün əsas olan sənədlərin qəbul olunması və həmin şəxsin əmlak hüquqlarının tanınması barədə öhdəlik qoyur və qərar vətəndaşın xeyrinə çıxarıldığı halda bunun əsasında torpağa dair çıxarış verilir.

*Universiteti 2023-cü ildə bitirmişəm. 9 aya yaxındır ki, işləyirəm. Bilmək istəyirəm ki, əyani təhsil illərim əmək stajında nəzərə alınmalıdırmı?*

Sualınızla bağlı bildiririk ki, Əmək Məcəlləsində "əmək stajı" və "əmək stajına daxil olan dövrlər"in anlayışları verilməsə də, məcəllənin bir sıra maddələrinin təhlilinə və ölkəmizdə oturuşmuş təcrübəyə əsasən, "əmək stajına daxil olan dövr" dedikdə işçinin faktiki olaraq işlədiyi dövr nəzərə alınır. Məsələn, Əmək Məcəlləsinin əlavə məzuniyyətlərin müddətləri və onun verilməsi ilə bağlı məsələləri tənzimləyən 116-cı maddəsinə əsasən, əmək stajına görə əlavə məzuniyyətin müddəti işçinin müəssisədə işəgötürənlə əmək müqaviləsi bağlayaraq faktiki olaraq işlədiyi dövrə əsasən müəyyən edilir. Bundan başqa, şəxsə gələcəkdə pensiya təyinatı ilə bağlı "sığorta stajı" anlayışı da nəzərə alınmalıdır. Belə ki, sığorta stajına daxil edilən iş və ya digər fəaliyyət müddətləri "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsilə tənzimlənir. Həmin maddədə isə əyani təhsil müddətinin sosial sığorta stajına daxil edilməsi nəzərdə tutulmamışdır.

Qeyd olunan normaların mahiyyətindən də göründüyü kimi, əmək stajının müddəti işçinin faktiki işlədiyi dövrlə məhdudlaşdırılmışdır və təhsil dövrü iş stajını təşkil edən müddətə daxil edilməmişdir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4233
Sifariş 2903
Qiyməti 60 qəpik